Azadlıq Radiosu

DÜNYA XƏBƏRLƏRİ

# Türkiyədə polis LGBT fəallarını kütləvi saxlayıb

indicə




LGBT hüquqları fəalları qürur yürüşü üçün toplaşmağa çalışarkən çevik polis alayı insanları dağıdır. 2017

Sentyabrın 12-13-də Türkiyə polisi onlarla LGBT fəallını saxlayıb. Reydlər İstanbul, Ankara, İzmir və Antalyada keçirilib. Hüquq-mühafizə orqanlarının əməkdaşları fəalların mənzillərində, LGBT təşkilatlarının ofislərində və gecə klublarında axtarış aparıblar.

Polisin məlumatına görə, İstanbulda 26, Ankarada 20 nəfər saxlanılıb. Ümumilikdə reydlər 12 vilayətdə keçirilib. LGBT hüquqlarını müdafiə edən "Kaos GL" assosiasiyası 50 nəfərin saxlandığını, onların içində öz əməkdaşlarının da olduğunu bildirir.

"Kaos GL"in iddiasına görə, **axtarışlara assosiasiyanın saytında və sosial şəbəkələrdə yayımlanan, prokurorluğun ədəbsiz saydığı paylaşımlar səbəb olub.** LGBT təşkilatlarına və ayrı-ayrı fəallara məxsus bir neçə sayt və sosial şəbəkə səhifəsi şənbə günü – sentyabrın 12-də bloklanıb. Yalnız fəalların səhifələrinə deyil, Boğaziçi Universitetinin LGBT Araşdırmaları Klubu, Cinsi Təhsil, Araşdırma və Tibb Assosiasiyası (CETAD) kimi elmi təşkilatların saytlarına da giriş məhdudlaşdırılıb.

Polis əməliyyatı hökumətin "Ailəm təhlükəsizdir" təşəbbüsü çərçivəsində keçirilir. Məqsədin doğum səviyyəsinin azalması ilə mübarizə aparmaq, uşaqları mənfi təsirlərdən qorumaq olduğu bildirilir. Türkiyənin ədliyyə naziri Ərkin Gülək bildirib ki, prokurorluq ölkənin 15 vilayətində araşdırma aparır.

Türkiyə İnsan Hüquqları Assosiasiyası hakimiyyətin addımlarını pisləyib. **"Bu əməliyyatın əsl adı "Ailəm təhlükəsizdir" deyil; bu, dövlətin yönəltdiyi ayrıseçkilik, qorxutma siyasəti və vətəndaş cəmiyyətinin məhv edilməsidir"**, – assosiasiyanın nümayəndələri X sosial şəbəkəsində yazıblar.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur